İPƏK YOLU, No.4, 2020, səh.139-149

# XVIII ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİ ŞƏHƏRİNDƏ METALİŞLƏMƏ SƏNƏTKARLIĞI HAQQINDA

**Nuranə Mazanova**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gasimova.nurana@mail.ru

**Xülasə.** Məqalədə XVIII əsrin sonu - XX əsrin əvvəllərində Şəki şəhərində metalişləmə sənətkarlığı nəzərdən keçirilir. Şəki şəhərində metalişləmə sənətkarlığının dəmirçilik, silahqayırma, misgərlik, zərgərlik və metal pulların kəsilməsi sahələri üzrə ixtisaslaşması analiz edilmiş, şəhərin metalişləmə sənətkarlığı mərkəzinə çevrilməsi göstərilmişdir.

**Açar sözlər:** Şimali Azərbaycan, Şəki şəhəri, metalişləmə sənətkarlığı, dəmirçilik, silahqayırma, misgərlik, zərgərlik, metal pullar.

## LATE XVIII CENTURY - EARLY XX CENTURY ABOUT METALWORKING ART IN SHAKI

**Nurana Mazanova**
*Azerbaijan State University of Oil and Industry, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article deals with metalworking in Sheki in the late 18th - early 20th centuries. The specialization of metallurgy in blacksmithing, arms, copper, jewelry and coinage in the city is analyzed. The high level of development of blacksmithing in the city and the transformation of Sheki into the center of metallurgy are shown.
**Keywords:** Northern Azerbaijan, Shaki, metallurgy, blacksmithing, armaments, coppersmithing, jewelry, coins.

## ОБ ИСКУССТВЕ МЕТАЛЛООБРАБОТКИ В ШЕКИ В КОНЦЕ XVIII - НАЧАЛЕ XX

**Нурана Мазанова**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается металлообработка в Шеки в конце 18 - начале 20 вв. Проанализирована специализация металлургии в кузнечном, оружейном, медном, ювелирном и монетном деле в городе. Показывается высокий уровень развития кузнечного дела в городе и превращение Шеки в центр металлургии.
**Ключевые слова:** Северный Азербайджан, Шеки, искусство металлообработки, кузнечное дело, вооружение, медь, украшения, монеты.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şəkidə inkişaf etmiş sənət sahələrindən biri də metalişləmə sənəti idi. Şəki xanlığında, Şimali Azərbaycanın digər xanlıqlarında olduğu kimi metal yüksək qiymətləndirilirdi. Metal Azərbaycana, o cümlədən Şəkiyə əsasən Osmanlı dövlətindən və Rusiyadan gətirilirdi. Bu ölkələrlə metal ticarəti mühüm sahələrdən biri hesab olunurdu. Osmanlı dövlətindən gətirilən polad "Osmanlı poladı", yaxud "Dəməşq poladı" adı ilə daxil olurdu. Qmelinin yazdığına görə Cənubi Qafqazda dəmir, polad və qurğuşun baha qiymətə satılırdı. Metala yüksək ehtiyacın olması hətta metal qırıntıları ilə qiymətli malları almaq olurdu [24, s. 41].

Azərbaycan ərazisində tarixən zəngin dəmir və mis yataqların olması burada metal aşyalarının istehsalı üçün müəyyən əlverişli şərait yaradırdı. Dövrün mütəxəsislərin gəldiyi qənaətə görə Şimali Azərbaycan ərazisində qədim dövrlərdən dəmir və mis mədənlərinin

Pəmbək dağ silsiləsinin şərq hissəsində, xüsusilə Dzeqam və Şamkir vadilərində, Daşkəsən dairəsində, habelə Tərtər vadisində olduğu göstərilir [32, s.263-264].

XVIII əsrin sonlarında olduğu kimi XIX əsrin birinci yarısında da Şəkidə dəmirçilik metal emalının aparıcı sahəsi olaraq qalırdı. Şəki şəhərində dəmirçilərin böyük dəstəsi çalışırdı. Dəmirçilərin böyük əksəriyyəti kənd təsərrüfatı alətlərinin istehsalı üzrə ixtisaslaşmışdı. Məişət əşyaları və sənətkarlar üçün əmək alətləri düzəldən dəmirçilər də var idi. Yerli dəmirdən əsasən at nalı, at nalı mismarı, dəhnə (yüyənin atın ağzına taxılan dəmir hissəsi) və yəhər ləvazimatı, sadə kənd təsərrüfatı alətləri və sair düzəldilirdi [5, c. 45]. Artıq XIX əsrin əvvəllərində Şəkidə nalbəndlik müstəqil sənət sahəsinə çevrilməyə başlamışdı. Şəhərin özündə 23 nəfər nalbəndliklə məşğul olurdu [16, 119]. XIX əsrin 90-cı illərində Şəkidə fəaliyyət göstərən 9 naldbənd karxanasının hər birində 1 usta, 2 usta köməkçisi və 1 şagird işləyirdi [11, c. 95].

Bir nalbənd karxanasında bir ildə 860 ədəd at nalı, 720 ədəd ulaq, 960 ədəd öküz nalı, 800 ədəd ayaqqabı nalı, at nalı üçün 5 160 ədəd mismar, ulaq nalı üçün 2 880 ədəd mismar, öküz nalı üçün 3 840 ədəd mismar, ayaqqabı nalı üçün isə 4 000 ədəd mismar hazırlanırdı. Bu karxanalarda həmçinin bir ildə 8 ədəd məhəccər, 15 ədəd bolt, 80 ədəd qarmaq və 12 ədəd dəhnə istehsal olunurdu. Bir at nalının qiyməti 10 qəpik, ulaq nalının qiyməti 4 qəpik, öküz nalının qiyməti 2,5 qəpik, ayaqqabı nalının qiyməti 3 qəpik, 5 160 ədəd at nalı mismarının qiyməti 21 rubl 50 qəpik, 2 880 ədəd ulaq nalı mismarının qiyməti 6 rubl, 3 840 ədəd öküz nalı mismarının qiyməti 8 rubl, 4 000 ədəd ayaqqabı nalı mismarının qiyməti 8 rubl 33 $^{1/3}$ qəpik, 1 məhəccərin qiyməti 3 rubl, 1 boltun qiyməti 50 qəpik, 1 qarmağın qiyməti 5 qəpik, 1 dəhnənin qiyməti 1 rubl idi [11, c. 97].

XIX əsrin ikinci yarısından etibarən Şəkinin kustar metal məmulatı dükanlarının xammalla təchizatında Bakı şəhəri mühüm rol oynamağa başlamışdı. Kapitalist Bakısına metal idxalının güclənməsində burada neft sənayesinin inkişafı ilə əlaqədar mexaniki təmir emalatxanalarının sayının artması və onların bir çoxunun tezliklə böyüyüb iri təmir müəssisələrinə çevrilməsinin mühüm rolu olmuşdur. Bakı sərmayədarlarının köməyi ilə Şəkinin dəmir ustaları kifayət qədər xam və işlənmiş (köhnə) metal ehtiyatı ilə təmin olunurdular. 1848-ci ilin məlumatına görə hər il Bakıdan Şəkiyə 6 min pud dəmir gətirilirdi. [5, c.46]. Yelizavetpoldan dəmirin 1 pudunu 1 rubl – 1 rubl 40 qəpiyə almaq olurdu. [6, c.322].

Şəki şəhərində dəmirçiliklə məşğul olan sənətkarlar metalişləmənin digər sahələri ilə məşğul olan sənətkarlara nisbətən daha çox idi. XIX əsrin 40-cı illərin ortalarında Şəki şəhərində dəmirçiliklə 30 nəfər usta və 90 nəfər onun işçisi çalışırdı. Dəmirçilik məmulatları satan 30 dükan var idi. Bu sənət sahiblərinin illik qazancı 10 500 rubla bərabər idi [18]. 1849-ci ildə dəmirçiliklə 32 nəfər ustanın çalışdığı məlumdur [8, s.72]. 1856-cı ildə Şəki şəhərində 56 dəmirçi işləyirdisə [30, s.158], 1861-ci ildə 115 dəmirçi öz ailəsini bu sənət hesabına dolandırırdı. [10, s.564]. 1878-ci ildə Şəki şəhərində 18 dəmirçi işləyirdi. [30, s.158]. 1891-

ci ildə Şəki şəhərində fəaliyyət göstərən 5 dəmirçi karxanasında 5 usta, 11 usta köməkçisi və 7 şagird çalışırdı [11, s. 95].

Kənd təsərrüfatı alətlərini hazırlayan bir dəmirçi karxanadında bir ildə biri 50 qəpik olmaqla 25 oraq, biri 60 qəpik olmaqla 9 dəryaz, biri 1 rubl 20 qəpik olmaqla 12 balaca balta, biri 2 rubl 50 qəpik olmaqla 7 böyük balta, biri 2 rubl 50 qəpik olmaqla 20 kotan, biri 60 qəpik olmaqla 25 bağ beli, biri 1 rubl olmaqla 15 çəltik beli, biri 40 qəpik olmaq 40 bıçaq tiyəsi, biri 1 rubl 20 qəpik olmaqla 10 külüng istehsal edilirdi [11, s.96].

Dəmirçilərin illik gəliri 100-150 rubla çatırdı. Şəki şəhər dəmirçiləri əsasən çubuq və zolaqlı dəmirdən istifadə edirdilər. Dəmirçilərə bir ildə 20 205 rublluq 5 220 pud dəmir və 1 500 rublluq 300 pud polad lazım gəlirdi [11, s.94].

Dəmirçiliklə məşğul olan sənətkarlar bir sıra sahələrə bölünürdülər. Bunlardan biri də tənəkəçilik olmuşdur. Zindan üzərində qol gücünə dəmir, çuqun, mis, qalay və digər əlvan metalları “yoğuraraq” müxtəlif formalara salan sənətkar tənəkəçi adlanırdı. Tənəkəçiliklə XIX əsrin 70-ci illərinədək məlumatlar çox kasadddır. 1878-ci ilin məlumatına görə Şəkidə tənəkəçilik sənəti ilə 4 nəfər məşğul olmuşdur [30, s.165 ].

Dəmirçiliyin digər sahələrindən biri də dəmir boru hazılamaq sənəti idi. Bu işlə Şəki şəhərində 1848-ci ildə 1 nəfərin məşğul olduğu qeydə alınmışdır [30, s.165 ].

Dəmirçixana, adətən, ikimərtəbəli yaşayış binasının alt qatında, iri kəndlərdə ayrıca binada, şəhərlərdə isə ticarət cərgələrində yerləşirdi. Dəmirçixananın istehsal ləvazimatı körüklü kürədən, onun yanında yerə bərki-dilmiş qarağac kötüyündən, ona bərkidilmiş müxtəlif növ zindanlardan, xart çarxı və onun təknəsindən, məngənə, kirə və s. ibarət idi. Dəmirçixanada geniş çeşiddə istehsal alətləri: cürbəcür ölçülü çəkiclər, müxtəlif formalı kəlbətinlər, çoxsaylı kəsici, deşici, yeyələyici, ovxarlayıcı və s. alətlər işlənirdi [14, s.29].

Dəmir məmulatına tələbat böyük olduğundan dəmirçilik sənəti təkcə Şəki şəhərində deyil, ucqar kəndlərdə də yayılmışdı. Zaman keçdikcə dəmirçiliklə məşğul olanların sayında azalma baş verirdi. Əgər XIX əsrin 70-ci illərində yerli dəmirçilər tərəfindən çoxlu sayda taxta mismarı istehsal olunurdusa, artıq 80-ci illərin sonlarında Şəki şəhərində heç bir dəmirçi karxanasında bir dənə olsun taxta mismarı hazırlanmırdı. 1886-cı ildə Şəki şəhərində bir ayda 100 ədəd dəryaz istehsal edilirdisə, 3-4 ildən sonra bu rəqəm 8-ə düşmüşdü və s. [11, c.100]. Lakin bununla belə dəmirçiliklə məşğul olanlar kifayət qədər olmuşdur. 1897-ci ilin məlumatına görə bütövlükdə dəmirçiliklə məşğul olanların ümumi sayı şəhərdə 202 nəfər olmuşdur. Kəndlərdə isə bu rəqəm 238-ə çatırdı [23, c.117].

Beləliklə də XIX əsrin sonu – XX əsrin əvvəllərində Şəkinin sənaye inkişafı yoluna qədəm qoyması, ömrünü başa vurmaqda olan bir sıra kustar sənət sahələri kimi, dəmirçilik sənətinin bir sıra sahələrinin də aradan çıxması prosesini sürətləndirirdi. İlk vaxtlar bəzi məhsulların istehsalının məhdudlaşması üzrə gedən həmin proses tədricən kustar dəmir məmulatı istehsalının bütün sahələrini bürüməyə başlamışdı. Bir tərəfdən təsərrüfat və ev məişətində işlənən əmək alətlərinin sənaye üsulu ilə istehsalının artması, digər tərəfdən isə

kənd təsərrüfatı maşınları tətbiqinin genişlənməsi ənənəvi dəmirçilik sənətinin tənəzzülünə rəvac verirdi.

XVIII əsrin sonlarında Şəki xanlarının xanlığın müstəqilliyini qorumaq üçün fasiləsiz apardığı müharibələr və tez-tez baş verən xarici hücumlar xanlıqda hərbi dəstələrin saxlanmasını və bu dəstələrin silahlandırılması zərurətini yaradırdı. Müharibə vaxtı 10-12 min adamı silahlandırmaq lazım gəlirdi [2, s. 441]. Digər tətəfdən aramsız müharibələr və qarətlər əhalini daim silahlı olmağa məcbur edirdi. Əhali əkinə, səpnə və biçinə gedəndə belə özləri ilə silah gəzdirməli olurdu. [1, v. 48]. Əhalini silahlandıran belə şərait müxtəlif növ silahlar istehsal edən karxanaların yaranmasına gətirib çıxarırdı.

Silahqayırmada əsas sahə odlu silah istehsalı idi. Bu tipli silahların istehsalı başlıca olaraq xanlıqların mərkəzlərində cəmlənmişdi. 1810-cu ilin əvvələrinə aid edilən sənəddə Şəkidə silahqayırma emalatxanaların fəaliyyətdə olduğu göstərilir. [22, s. 38].

Silahqayırma sənətində başlıca məsələlərdən biri yüksək keyfiyyətli poladın əldə edilməsi və ondan istifadə üsulunun mənimsənilməsi idi. Silahın keyfiyyəti hər şeydən öncə, onun hazırlandığı xammaldan asılı olduğundan istər soyuq, istərsə də odlu silah istehsalçıları bu cəhətə xüsusi diqqət yetirilirdi. Ona görə də silahqayırma sənətində xammal tədarükü zamanı çox vaxt xam dəmirə nisbətən işlənib sıradan çıxmış köhnə metal məmulatı qırıntılarına daha çox üstünlük verilirdi. Xüsusilə istifadə nəticəsində korlanıb sıradan çıxmış "nalpara" adlanan köhnə nal parçaları silah ustalarının ən etibarlı xammal növü sayılırdı. Lakin yerli dəmir istehsalı çətin, həm də baha başa gəldiyindən və məhdud səciyyə daşıdığından Azərbaycanın, o cümlədən Şəkinin silah emalatxanalarında idxal yolu ilə əldə olunan əcnəbi xammala daim ehtiyac hiss olunurdu [14, s.29]. Silah ustaları silahların hazırlanmasında daha çox Dəməşq poladına üstünlük verirdilər.

Yelizavetpol quberniyasında odlu silah istehsalı məhdud səciyyə daşımasına baxmayaraq, Cəbrayıl və Şəkidə daha geniş yayılmışdı [24, s.44]. Uzun lüləyə malik olan yerli tüfənglər möhkəmliyi, sərrast atəşi və gülləsinin uzaq məsafəyə süzməsi ilə fərqlənirdi. Qafqaz müharibəsi (1817-1864) zamanı yerli tüfənglər məhz bu cəhətdən rus qoşunlarının silahlandığı süngülü tüfənglərdən üstün idi.

Odlu silah istehsalı emalatxanalarında qundağ hazırlayan, lülə hazırlayan və habelə lüləyə naxış vuranlar çalışırdı. Silahlar şərq üslubunda hazırlanırdı. Qızıl və gümüşü naxışları ilə bəzədilən silahlar üzərinə Qurandan ayələr həkk olunur və hazırladığı ustanın adı yazılırdı. "Bir sıra şəhərlərin silah ustaları arasında Şəki sənətkarları da öz işləri ilə fəxr edə bilərdi". Silah gilizləri dəmirdən hazırlanırdı. Gilizlər barıtla doldurulduqdan sonra zoğal ağacından düzəldilən tıxacla tıxanırdı [31, s.69].

Silahqayıma işi işğaldan sonra dəbdən düşmüşdü. Ona görə də bu sənətə maraq xeyli azalmışdı. Lakin dövrün arxiv materialları və habelə yazılı mənbələrin məlumatları Şəki şəhərini dəmirçilik, misgərlik, qalayçılıq, çilingərlik, zərgərlik kimi sənət sahələri ilə yanaşı silahqayırma mərkəzi hesab etməyə əsas verir. XIX əsrin 30-cu illərində Şəkidə bir neçə silah

emalatxanası işlədiyi haqqında məlumat verilir. 1848-ci ildə də Şəkidə silahqayırma ilə 13 nəfər sənətkarın məşğul olduğu məlumdur [15, s.18]. Bu emalatxanalarda soyuq və odlu silahlar istehsal olunurdu. Odlu silahın hazırlanmasında Şəkidə bir nəfər məşğul olurdu və bu cür silahlar onun dükanından almaq olurdu. Odlu silahın hazırlayan bir sənətkarın illik gəliri 150 rubl idi [18]. Şəkidə tüfəng və tapança lülələri hazırlamaqla 2 sənətkar məşğul olurdu. Bunların illik gəliri 300 rubl idi [20]. Dağlı əyanlar onların düzəltdiyi və qundağını fil sümüyü ilə işlədikləri tüfənglərin hərəsinə dörd at verirdilər [4, s.195]. Vaxt var idi bir tüfəngə və ya qılınca 200 qoyun və ya da 200 qoyun dəyərində pul verirdilər [24, s.43].

Şəkidə silah istehsalı XIX əsrin 70-ci illərində də davam edirdi. Rusiya-Osmanlı müharibəsi başa çatdıqran sonra silah istehsalı azalmağa başladı. Əgər 1885-ci ildə Şəki şəhərində rəsmi məlumata görə 11 nəfər tüfəngqayıran var idisə, 1886-cı ildə bütövlükdə onların sayı 2 nəfərədək azalmışdı [30, s.170]. Şəkinin Xaçmaz kəndində də tüfəng istehsal olunurdu [9].

Odlu silah istehsalına dair mövcud statistik materiallar XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda, o cümlədən Şəkidə tüfəngsazlıq sənətinin tənəzzülə uğradığını göstərir. Bu cəhət, yəni odlu silah istehsalının azalması faktı XIX əsr müəlliflərinin də diqqətindən yayınmamışdır. Həmin dövrdə Şimali Azərbaycanda, o cümlədən Şəkidə odlu silah istehsalının tənəzzülə uğramasının əsas səbəbləri Tula və Belçikadan daha ucuz başa gələn silahların idxalı [6, s.328] və Qafqaz müharibəsindən sonra burada odlu silah istehsalının qadağan edilməsi idi. [24, s.45].

1893-cü ildə Cənubi Qafqaz diyarının baş mülki rəisi S.A. Şeremetyev əhalinin tərksilah edilməsi haqqındakı xüsusi sərəncamından sonra hakimiyyət orqanları tərəfindən əhalinin silahlarını kütləvi surətdə müsadirə edilməsinə başlanılmışdı. 1894-1895-ci illər ərzində təkcə Yelizavetpol quberniyasının əhalisindən 53 min ədəd tüfəng müsadirə olunmuşdu. Hakimiyyət orqanları kustar yolla odlu silah hazırlanmasının qarşısını almaq üçün də ciddi tədbirlərin görülməsinə başlanmışdı [17, s.118].

Odlu silah istehsalının qadağan olunması ilə əlaqədar olaraq, soyuq silah istehsalı daha çox bıçaqçılıq, odlu silah istehsalı isə çilingər səciyyəsi kəsb etməyə başlamışdır. Belə ki, odlu silah istehsalının birdən-birə azalması ilə əlaqədar olaraq şəhərlərdə daxili rəqabət xalis çilingər xarakterli işlərinin tədarük vacibliyi odlu silah qayıranları çilingər işlərinə keçməyə vadar edirdi. Tarixən Cənubi Qafqazda xüsusi çilingər istehsal sahəsi mövcud olmamışdı. Çilingərlik sənəti odlu silah istehsalı nəzdində fəaliyyət göstərdiyindən bu sahənin inkişafı odlu silah istehsalından asılı olmuşdur [24, s.45]. XIX əsrin 40-cı illərində Şəkidə 4 nəfər çilingərliklə məşğul olurdu. Hər bir çilingərin bir şagirdi və yaxud da işçisi olurdu. Çilingərlik məmulatları 4 ixtisaslaşmış dükanda satılırdı [18]. 1878-ci ildə Şəkidə 2 çilingərin çalışdığı haqqında məlumat verilir [30, s.165].

Şəkidə soyuq silah hazırlanması sənəti də inkişaf etmişdi. Şəkinin kəndlərində də bu silah istehsalı ilə məşğul olanlar var idi. Bu sahədə Qutqaşen kəndi daha qabağa getmişdi.

1850-ci ilin məlumatına görə bu kənddə Bala oğlan adını almış qız bıçaq, tüfəng çaxmağı, tüfəng açarı və digər əşyalar hazırlayırdı [20].

1852-ci ildə Moskvada keçirilən Ümumrusiya kənd təsərrüfatı və əl işləri ictehsalı sərgisində azərbaycanlıların da əl işləri nümayiş etdirilmişdi. Həmin sərgidə nümayiş etdirilən əl işləri içərisində qutqaşenli Usta Rəhim Cəfər oğlunun hazırladığı xəncərlər fəxri fərmana layiq görülmüşdü [30, s.210]. Bu kənddə XIX əsrin 80-ci illərində həmçinin Şəki şəhər sakinlərinin sifarişi əsasında dəmir süngülü xüsusi bıçaqlar hazırlanırdı. Belə bıçaqların qiyməti keyfiyyətindən asılı olaraq 1 rubldan 1 rubl 20 qəpiyədək idi [9]. XIX əsrin sonlarında Qafqazda istehsal olunan silahların qiyməti müxtəlif bölgələrdə müxtəlif idi. Xəncər 1 rubldan 5 rubladək, qılınc 5 rubldan 20 rubladək, tüfəng isə 5 rubldan 10 rubladək qiymətə satılırdı. Silahqayıran çilingərin orta illik əmək haqqı 100-225 rubl hesab olunurdu. [24, s.46].

Şəkinin Küsnət kəndində də xəncər hazırlanırdı. Bu kənddə hazırlanan xəncərinin birinin qiyməti keyfiyyətindən asılı olaraq 40 qəpikdən 1 rubladək idi. Şəki bazarına satışa çıxarılan həmin incə tiyəsi xəncərlərin işləmək üçün daha əlverişli olduğu üçün tacirlər tərəfindən alınaraq Şuşa və Tiflis bazarlarına daşınırdı və orada daha baha qiymətə satılırdı [9] . Bu incə tiyəli xəncərlərin qını gözəl naxışlarla bəzədilirdi [4, s.195].

Metal emalının mühüm sahələrindən biri də misgərlik olmuşdur. Xammal mənbələrinin yaxınlığı və əlverişliliyi, misdən hazırlanmış qablara olan tələbat Şimali Azərbaycanın digər şəhərlərində olduğu kimi Şəki şəhərində də misgərliyin inkişafı üçün lazımi şərait yaradırdı. Qafqazın özündə çıxarılan metallar, məsələn mis, daha uzuz başa gəldiyinə görə məişətdə istifadə olunan qablar əsasən misdən hazırlanırdı [24, s.46]. Cənubi Qafqazda 1770-ci ildən Allahverdi və Şamlıq mis mədənləri fəalyyət göstərirdi ki, burada 10-15 pud mis əldə edilirdi. Bu mədənlərdə 1803-1831-ci illərdə 99 290 pud mis əldə edilmişdi. Mədənlərin Tiflisdə və Yelizavetpolda satış məntəqələri fəaliyyət göstərirdi. Xalis mis 7-9 gümüş rubla satılrdı. [31, s.62, 64].

1810-cu ilin əvvələrinə aid edilən sənəddə Şəkidə gümüş və mis qabların hazırlandığı haqqında məlumat verilir [22, s.38]. 1846-cı ildə Şəkidə 2 misgər və onun 4 işçisi çalışırdı. Misgərlik məmulatları bir dükanda satılırdı. Misgərlərin illik qazancı 2 000 rubl idi [18]. 1849-cu ildə isə Şəki şəhərində 7 qalayçı və misgər emalatxanasının fəaliyyət göstərdiyi haqqında məlumat verilir [8, s.72].

Qeyd olunmalıdır ki, Şimali Azərbaycanda mis əsasən Gədəbəy mis mədənlərində çıxarılırdı [19, 16-cı cədvəl]. XX əsrin əvvəllərində Yelizavetpol quberniyasında 8 mis əridən zavod fəaliyyət göstərirdi. Əridilən misin az bir qismi yerli kustarlara satılırdı, qalan hissəsi Rusiyaya göndərilirdi. Misin bir pudunun qiyməti 14-17 rubl idi [12, s.56].

Cənubi Qafqazın mis qabların istehsalı üzrə mərkəzi hesab olunan Lahic ustaları Şəki şəhəri ilə böyük əlaqələri var idi. Hətta Lahıc ustaların bir qusmi öz ailələri ilə birlikdə Şəki şəhərinə gələrək mis qabları istehsaslı ilə məşğuliyyətini davam etdirirdilər. Lahicdan Şəki

şəhərinə gələn ailələr burada sakin olaraq “Lahic” məhəlləsinin əsasını qoymuşdular. Məhəmməd kimi bacarıqlı ustalar şəkililərin yaddaşlarında dərin izlər buraxmışlar. Şəki sənətkarları tərəfindən daha çox üzərində döymə bəzək elementləri olan müxtəlif olçülü badələr, məcməyelər, lüləyənlər, dolçalar, sərpuşlar, ləyənlər və digər mis qabları istehsal olunurdu. Mis qablarının bəzək motivi bir çox hallarda nazik xətlə həyata keçirilən həndəsi bitki rəsmləri və heyvan təsvirlərindən ibarət olurdu [13, s.79].

XIX əsrin 80-ci illərində Şəkinin Xaçmaz kəndində mis qazan və digər mis qabların hazırlandığı haqqında məlumat verilir. Istehsal olunan misin 1 funtu 40-50 qəpiyə, külçə halında olan misin 1 funtu 25-30 qəpiyə almaq olurdu. Yelizavetpol quberniyası üzrə mis qabların hazırlanmasında 1 000 puddan çox mis tələb olunurdu [9]. Qabların istehsalında istifadə olunan mis əsasən Tiflis və Yelizavetpol zavodlarından misi bazara çıxaran xüsusi adamlardan alınırdı [9].

Misəritmə zamanı qoşa və tay körük, kürə, müxtəlif ölçülü gil qəlib, ərintini qəliblərə tökmək üçün böyük və bala çömçə, ərintidə kənar qatışığı təmizləmək üçün uzun dəstəkli ödrənc və s. istifadə olunurdu. Misgərlik sənətində ən əsas məsələ əridilmiş mis qırsların “tapun” adlanan uzun dimdikli tov çəkisi vasitəsilə kollektiv surətdə tapdanıb yastı təbəqə halına salmaqdan ibarət idi. Qırsın tapdayıb yastılanması və kəsilib pəstaha halına salınması “qiblə” zindan üzərində, müxtəlif növ çəkic, kəlbətin, qayçı (gaz) vasitəsilə icra edilirdi. Pəstaha soyuduqca onu tov kürəsində qızdırıb təkrar döyürdülər. Mis məmulatının ayrı-ayrı hissələri müxtəlif növ zindan (“qiblə” zindan, “qulaqlı” zindan) üzərində döyülüb müvafiq formaya salınandan sonra “calğa” adlanan həmin hissələrin kənarı gaz vasitəsilə doğranıb dilimlənirdi. Calğaların “dəndə” adlanan qıraq dilimləri “yastıdodaq” kəlbətin vasitəsilə “içəri-geri” olmaqla əyilib qatlanırdı. Bundan sonra calğa dəndələri bir-birinə keçirilərək ağız-ağıza birləşdirilir və zindan üzərində tapun ilə tapdanıb aşağı yatızdırılırdı. Bu əməliyyat başa çatandan sonra calğaların calaqları lehinlənib bir-birinə birləşdirilirdi. Mis məmulatının bir qismi hazır olandan sonra çarxa verilib hamarlanır və onların səthindən çəkic izləri itirilirdi. Bütün bunlardan əlavə, mis qabların bir qismi “həkkak” və ya “yazıçı” adlanan nəqqaş tərəfindən polad qələm və həkkak çəkici vasitəsilə naxışlanaraq bəzədilirdi. Üzərində əlavə əməliyyat aparıldığı üçün naxışlanmış qablar “izafə”, naxışsız qablar isə “xara” adlanırdı [14, s. 29].

Mis qablar istehsalının geniş yayılması misgərliklə sıx bağlı olan və müstəqil səciyyə daşıyan digər sənətkarlıq sahəsinin qalayçılığın inkişafına təsir göstərirdi. Bazar üçün işləyən digər sənətkarlardan fərqli olaraq qalayçılar yalnız sifarişlə işləyirdilər. Əvvəlki dövrlərdə səyyar işləyən qaynaqçılar, xanlıqlar dövründə artıq oturaqlaşmağa başlamışdı. Qalayçıların öz emalatxanaları var idi. 1846-cı ilin məlumatına görə Şəki şəhərində 5 usta və 50 işçinin çalışdığı 5 emalatxana fəaliyyət göstərirdi [18].

Zərgərlik Azərbaycanda, o cümlədən Şəkidə qədim tarixə malik olan sənət sahələrindən biri olmuşdur. Xanlıqlar dövründə hökm sürən iqtisadi tənəzzül və bunun nəticəsi kimi əhalinin həyat səviyyəsinin aşağı düşməsi zərgərlik sənətinə də təsirsiz

ötüşmədi. Qızıl və gümüşə daim ehtiyacı olan Şəki xanları xaricə satışa çıxarılan ipəyin qızıl və gümüş pula satılması haqqında göstəriş verirdilər. Bunu arxiv sənədləri də təsdiq edir. Belə ki, Həştərxan qubernatoru özünün Qafqaz canişini Q. Pomyomkinə ünvanladığı məktubunda "Şəki xanı tacirlərinə ipəyin yalnız və yalnız gümüş pula satmaq tapşırığı verdiyini" yazırdı. Xaricdən gətirilən gümüş və ya qızıl pullar yerlərdə pul kəsilməsində və zərgərlik məmulatlarının hazırlanmasında istifadə olunurdu [3, s.68].

Zərgərlik məmulatları yerli əhalinin varlı zümrənin məişətində mühüm yer tutmaqda davam edirdi. Şəki şəhərinin kameral təsvirindən aydın olur ki, həmin dövrdə burada 46 nəfər gümüş və qızılın emalı ilə məşğul olurdu [16, s.124].

Zərgər dükanlarında qadınlar üçün müxtəlif növ baş, boyun, qol, bilək, barmaq və paltar bəzəkləri hazırlanırdı. 1848-ci ilin məlumatına görə Şəki şəhərində hər il qızıl və gümüşdən hazırlanan qadın bəzəklərinə 10 000 rubl xərclənmişdi [29]. Həmin ildə qızıl zərgərliyi ilə 2 nəfər məşğul olurdu [30, s.171].

Kustar şəkildə gümüş məmulatlarının hazırlanması Şəkidə xüsusi bir sahəyə çevrilmişdi. Bu illərdə Şəki şəhəri Cənubi Qafqazda gümüşbənd və zərgərlərin sayına görə birinci yerdə gedirdi. Şəkidə istehsal olunan gümüşbəndlər bütün Qafqazda məşhur idi. Onun Qafqazdan kənarda da çoxlu satıcıları olurdu. Bu baxımdan bu sənət sahəsi ilə məşğul olanların sayı da çox idi. 1846-cı ildə Şəki şəhərində yalnız gümüş məmulatı istehsalı ilə məşğul olanların sayı 20 nəfər olub onun 10 nəfəri usta, 10 nəfəri isə onun işçisi hesab olunurdu. Gümüş məmulatı istehsalı ilə məşğul olanların illik gəliri 3 000 rubl idi. Gümüş məmulatı 10 dükanda satın almaq olurdu [18]. Şəki şəhərində fəaliyyət göstərən gümüş zərgər emalatxanalarında 1848-ci ildə 41 nəfər çalışırdı [30, s.171]. Şəki şəhərində 1849-cu ildə 12 zərgərlik dükanı fəaliyyət göstərmişdi [8, s.72]. 1878-ci ildə zərgərliklə 17, 1885-ci ildə isə 32 nəfər məşğul olmuşdur [30, s.171]. Şəkidə 1886-cı ildə fəaliyyət göstərən 31 zərgərlik emalatxanası var idi [7, s.60]. 1897-ci ildə Şəki şəhərində 39 [23, s.117], 1902-ci ildə isə 22 nəfərin zərgərliklə məşğul olduğu məlumdur [25, s.87].

Burada hazırlanmış gümüş məmulatları şəhərin özündə satılmaqla yanaşı böyük bazarlara da çıxarılırdı. Müxtəlif çeşiddə gümüş bel kəmərlərinin, habelə soyuq və odlu silahlar üçün bəzək əşyalarının hazırlanması bəhs olunan dövrdə silah istehalının azalması ilə əlaqədar olaraq azalmağa başlamışdı. Lakin gümüşdən qadın bəzək əşyalarının hazırlanmsı işi davam etdirilirdi. Nəcib metallardan minalanmış bəzək əşyalarının hazırlanması Cənubi Qafqaza məxsus idi. Şəkidə minalanmış bəzəklər əşyaları istehsalı, Şuşa və Bakıdakından geri qalırdı. Belə ki, Şuşa və Bakıda istehsal olunan minalanmış bəzəklər Cənubi Qafqazda ən yaxşıları hesab olunurdu [24, s.46].

1896-cı ildə Nijni-Novqorodda keçirilən sənətkarlıq və bədii yaradıcılıq nümunələrinin sərgiləndiyi Ümumrusiya sərgisində Şəki şəhər sakini Mehdi Əyyubovun qızıl və gümüşdən hazırladığı məmulat yüksək qiymətləndirilmişdi. [30, s.215]. 1900-cü ildə

Parisdə keçirilən beynəlxalq sərgidə Şəkidən zərif işlənmiş qızıl şamdan nümayiş etdirilmişdi [33].

Varlı ailələrin sifarişi ilə zərgərlik emalatxanalarında bəzən gümüşdən boşqab, qaşıq, bıçaq, çəngəl, maqqaş və sair məişət əşyaları hazırlanırdı [14, s.39].

Ənənəvi zərgərlik sənətində zərgər kürəsi, körük, məngənə, zindan, çəkic, kəlbətin, həddə, simkeş, zərrədin, zərrəbin, qələm, biz, sümbə, bıçaq, matqab, buta, hövnə, yeyə, maqqaş, məhək daşı və s. kimi müxtəlif növ əmək alətlərindən istifadə edilmişdir [14, s.29].

Gümüş və mis kimi nəcib və əlvan metallardan həm də pul kəsilməsində istifadə olunurdu. Müstəqilliyini hamıdan erkən əldə etməsinə və Şimali Azərbaycan xanlıqları arasında üstünlüyə iddia edən güclü bir qüvvə kimi tanınmasına baxmayaraq, Şəki xanlığı öz dövriyyə vasitələrinin sərbəst buraxılmasına qonşuları Gəncə və Şirvan xanlıqlarından bir qədər gec başlamışdı [28, s.157]. Şəki zərbxanalarında Kərim xan Zəndin dövründə kəsilməyə başlanan gümüş pulların üzərində Kərim xan Zəndin adı həkk olunmuşdu [27, s.8].

1819-cu ilin iyulin 31-də Şəki xanlığı ləğv olunmasına baxmayaraq Şəkidə İsmayıl xanın pulları hələ də dövriyyədə qalmaqda davam edirdi [26, s.767]. Şəki xanları tərəfindən icarəyə verilən zərbxanalarda ikigrivenlik gümüş və 10 qəpiklik mis pullar kəsilirdi [21, s.719].

Zərbxanaların mürəkkəb istehsal prosesi var idi. Sabikəsaz adlanan zərbxana işçisi tərəfindən pul istehsal olunacaq gümüş əritmə yolu ilə kənar qatışıqlardan təmizləndikdən sonra döymə yolu ilə uzun dairəvi külçə halına salınaraq çarxkeşdən (deşikli polad lövhə) keçirilirdi. Xüsusi kəsici gəzgah vasitəsilə hazır külçə abbası ölçüsündə doğranırdı. Pulun kəsilməsinin sonuncu mərhələsində dairəvi şəklə salınmış külçə qızdırılaraq qəlibə salındıqdan sonra zərrab çəkici vasitəsilə onun üstündən vururdu [16, s.129].

Beləliklə, XVIII əsrin sonu və XIX əsrdə Şəki şəhərində metalişləmə sənəti yüksək səviyyədə inkişaf etmişdir. Lakin XIX əsrin sonu – XX əsrin əvvəllərində bu sənətin bir sıra sahələri tənəzzül etməyə başlamışdır. Bu da bir sıra kənd təsərrüfatı alətlərinin kənd təsərrüfatı maşınları və zavodlarda istehsal olunmuş, habelə daha ucuz başa gələn kənd təsərrüfatı alətləri ilə əvəzlənməsi ilə bağlı olmuşdur. Şəki şəhərində yalnız zərgərlik sənəti öz inkişafını yüksək səviyyədə davam etdirirdi.

## Ədəbiyyat

1. Биберштейн М. Описание провинции расположенных на левой берегу Каспийского моря между реками Терек и Кура (перевод с французского С.Б. Ашурбейли). AMEA ТИЕА, f.1, siy.1, iş 466.
2. Броневский С. Новейшие географические и исторические известие о Кавказе. Часть 2, Москва: Типография С. Селивановского, 1823, 465 с.
3. Calalova L.Q. XVIII əsrin son rübündə Azərbaycan – Rusiya ticarət əlaqələrində ipəyin rolu, Tarix və onun problemləri, 2012, № 3, s. 65-71.
4. Düma A. Qafqaz. – Bakı: Qafqaz, 2010, 496 s. +58 s. illüstrasiyalar.

5. Дюкруаси И. О торговле в Закавказском крае, Записки Кавказского отдела императорского русского географического общества. Книга 2. – Тифлис: Типография канцелярии наместника Кавказского, 1853, с. 44-53.
6. Хатисов К. Кустарные промысли Закавказского края. Отчеты и исследования по кустарной промышленности в России. Т. 2. – СПб.: Типография В. Киршбаума, 1894, с. 259-370.
7. İsmayılov M. Şəki. Tarixi oçerk, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1982, 151 s.
8. Краткий очерк некоторых городов Кавказского и Закавказского края, Кавказский календарь на 1850. Отделение 3. – Тифлис: Типография канцелярии наместника Кавказского, 1849, s. 33-96.
9. Кустарная промышленность за Кавказом, "Qafqaz" qəzeti, 23 noyabr 1882-ci il.
10. Географическо-статистический словарь Российской империи. Т.3. – СПб.: Типография В. Безобразова, 1867, 743 с.
11. Головня И. Город Нуха, кузнечное производства, Сборник материалов для описаний местностей и племен Кавказа. Выпуск 11. – Тифлис: Типография канцелярии главноначальствующего гражданской частью на Кавказе, 1891. Отдел 1, с.94 -102.
12. Горные заводы и промысла на Кавказе, Кавказский календарь на 1903 год, Тифлис: Типография А.В. Кутателадзе, 1902. Отдел 3, с. 51-57.
13. Məmmədova İ.R. Şəki yaşayış evlərinin interyeri (XVIII əsri sonu – XX əsrin başlanğıcı), Bakı: Elm, 2008, 155 s.
14. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 420 s.
15. Mustafayev A.N. Şəki sənətkarlar diyarıdır, Bakı: Elm, 1987, s. 182.
16. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq, Bakı: Elm, 2002, 272 s.
17. Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı, Bakı: ADPU nəşriyyatı, 2006, 138 s.
18. Нуха, "Qafqaz" qəzeti, 15 iyun 1846-cı il.
19. Обзор Елисаветпольской губернии за 1908 г. – Тифлис: Типо-литография и переплетная т-ва Либерман и К°, 1909, 59 с.
20. О промышленности в Шемахинской губернии: Земледельческой, мануфактурной и торговой, "Qafqaz" qəzeti, 15 mart 1850-ci il.
21. Отношение д.т.с. Гурева к ген. Ермолову, от 24-го мая 1816 года, Акты, собранные Кавказской археографической комиссией. Том 6, часть 1. – Тифлис: Типография главного управления наместника Кавказского, 1874. Док. 1074, с. 718-723.
22. Отношение ген. Тормасова к д.т.с. Гуреву, от 2-го августа 1810 года, №94, Акты, собранные Кавказской археографической комиссией. Том 3, Тифлис: Типография главного управления наместника Кавказского. Док. 37, с. 37-43.

23. Первая всеобщая перепись населения Российской империи, 1897 г. Т. 63. Елисаветпольская губерния. – СПб.: Типография т-вщ «Народная польза», 183 с.
24. Пиралов А.С. Краткий обзор кустарных промыслов Кавказа, Тифлис: 1903, 50 с.
25. Пиралов А.С. Краткий обзор кустарных промыслов Кавказа, СПб.: Типо-лиография «Якор», 1913, 127 с.
26. Предписание ген. л. Вельяминова Казенной Экспедиции, от 23-го сентября 1821 года, № 2880, Акты, собранные Кавказской археографической комиссией. Том 5. Тифлис: Типография главного управления наместника Кавказского, 1873. Док. 1142, с. 767.
27. Раджабли А. Монетное дело во второй половине XVIII – начале XIX века (чеканка монет и денежные обращение в Азербайджанских ханствах), İrs, №3(39), 2009, с.4-9.
28. Раджабли А. Нумизматика Азербайджана, Баку: Элм ве Хаят, 1997, 232 с.
29. Состояние промышленности и торговли Шекинского уезда, "Qafqaz" qəzeti, 30 noyabr 1848-ci il.
30. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. – Баку: Издательство АН Азербайджанской ССР, 1964, 501 с.
31. Евецкий О. Статистическое описание Закавказского края. В двух частьях. – СПб.: Печатано в типографии штаба отделного корпуса внутренней стражи, 1835, 308 с.
32. Вейденбаум Е. Заметки об употребление камня и металлов у Кавказских народов, Известия Кавказского отдела императорского русского географического общества. Т. 4. – Тифлис: Типография главного управления Кавказского наместника, 1876, с. 263-264.
33. Выставка золотых и серебренных вещей, "Kaspi" qəzeti, 23 yanvar 1900-cü il.